# MİRZƏ BALA MƏHƏMMƏDZADƏYƏ ABİDƏ



***İslam QƏRİBLİ***
***filologiya üzrə elmlər doktoru, professor***

"Seyid Əzim Şirvaninin fəlsəfi görüşləri", "Mirzə Kazım bəyin ictimai fikirləri", "Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, islamçılıq, müasirlik", "Azərbaycan dövlətçilik fəlsəfəsi" adlı fundamental monoqrafiyaların, fəlsəfə və ictimai fikir tariximizə aid silsilə məqalələrin müəllifi olan professor Rəfail Əhmədli XIX-XX əsrlər Azərbaycan fəlsəfi və ictimai fikir tarixinin mötəbər tədqiqatçılarındandır.

Tədqiqatlarında nəzəriyyə ilə faktik materialları məharətlə əlaqələndirməyi bacaran, sənədlərlə işləməyə daha çox üstünlük verən müəllifin araşdırma sahəsinin əsas qollarından birini Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, Cümhuriyyətin qurucuları olan söz, fikir, əqidə adamlarının siyasi, ideoloji və fəlsəfi fikirlərinin sistemli şəkildə öyrənilməsi təşkil edir.

Araşdırmalarında milli-mənəvi və tarixi dəyərlərimizə daha çox önəm verən R.Əhmədlinin "Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi görüşləri" (Elmi redaktoru professor Asif Rüstəmli. Bakı: "Ozan", 2017, 448 səh.) monoqrafiyasında da yuxarıda qeyd etdiyimiz motivlər aşkar şəkildə özünü göstərir. Beynəlxalaq siyasətə və hüquq normalarına söykənən milli dövlətçilik, milli birlik, milli kimlik məsələləri monqrafiyanın əsas leytmotivini, ideyasını təşkil edir.

Mirzə Bala Məhəmmədzadə (1898-1959) əbədiyyətə qovuşana qədər Azərbaycan Xalq Cümhuriyyəti və onun ideallarına sədaqətlə xidmət göstərmiş böyük mütəfəkkirlərimizdəndir. Cümhuriyyətin yaranması da, süqutu da onun gözləri qarşısında baş vermiş, o, mühacirətdə Cümhuriyyətin şərəfli tarixini dünyaya bəyan edən, milli azadlıq mücadiləsinin ocağının sönməməsi naminə şəxsi səadətini qurban verən, bütün həyatını şərəf və ləyaqətlə yaşamağı bacaran münəvvərlərdən biri olmuşdur. Bu bənzərsiz şəxsiyyətin həyat, siyasi mübarizə və yaradıcılq yolunu ambisiyalardan uzaq, obyektiv şəkildə işıqlandırmaq, əslində AXC və onun tarixdəki rolunu olduğu kimi olmasa da, bu və ya digər cəhətdən olduğuna oxşar bir şəkildə işıqlandırmaq deməkdir. Biz tərəddüd etmədən professor R.Əhmədlinin monoqrafiyasını həm də AXC-nin yüz illiyinə həsr olunmuş çox qiymətli tədqiqat hesab edirik.

Mötəbər mənbələr, arxiv materialları əsasında, Azərbaycanda və ölkə xaricində nəşr olunmuş çeşidli ədəbiyyatlardan bəhrələnməklə yazılmış 448 səhifəlik monoqrafiya "Giriş", üç fəsil və "Nəticə"dən ibarətdir.

Əsərin əhatəli "Giriş"ində XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində Şimali Azərbaycanda baş vermiş ictimai-siyasi, mədəni mühit barədə ətraflı danışılmış, Azərbaycanda və Rusiyada yaranan bir çox siyasi təşkilat və mətbuat orqanlarının yaranması ilə yanaşı, onların məram və fəaliyyət istiqmətləri barədə də açıqlamalar verilmişdir.

Müəllif doğru olaraq qeyd edir ki, Azərbaycanın öz müstəqilliyini elan etməsindən sonra Respublikamızda və qardaş Türkiyədə AXC-nin bir çox liderləri kimi, M.B.Məhəmmədzadə haqqında da müxtəlif yazılar yazılmış, ərəb əlifbası ilə çap etdirdiyi əsərlərindən bəziləri latın qrafikasına çevrilərək nəşr edilmişdir. Lakin bu tədqiqatlar, görülən işlər problemi köklü şəkildə həll etmədiyindən, Mirzə Bala Məhəmmədzadə ilə bağlı bir sıra məsələlər elmi həllini tapmamışdır.

Problemi sistemli, əhatəli şəkildə çözmək niyyəti ilə yazılmış monoqrafiyanın üç yarımfəsildən ibarət olan birinci fəsli Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi fəaliyyəti və dünyagörüşü məsələsinin şərhinə həsr olunmuşdur.

Tədqiqatdan aydın olur ki, yazıçı, publisist, tarixçi, ideoloq, ən başlıcası birmənalı olaraq mütəfəkkir ictimai-siyasi xadim kimi qəbul edilən Mirzə Bala Məhəmmədzadə həyatının önəmli bir bölümünü Quzey Azərbaycanda (1898-1923), dörd ilini Güney Azərbaycanda (1923-1927), fasilələrlə Türkiyədə (1927-1932 və 1939-1959-cu illər), yeddi ilini Polşada (1932-1937), müəyyən dövrünü Almaniyada keçirmiş, siyasi fəaliyyətə lap gənc yaşlarından, Bakı Politexnik Məktəbində oxuyarkən gizli "Məhəmmədiyyə" təşkilatında başlamışdır. Azərbaycan gəncliyini milli və dini ruhda yetişdirməyə çalışan bu təşkilatın toplantılarında şagird yoldaşı Cəfər Cabbarlı ilə aktiv iştirak edən M.B.Məhəmmədzadə burada dövrünün tanınmış milli ziyalıları olan Hüseyn Cavid, Əhməd Cavad, Mirzə Cəlal Yusifzadə ilə tanış olmuş və bu tanışlıq onun dünyagörüşünün formalaşmasında əhəmiyyətli rol oynamışdır.

Ədəbi və jurnalistlik fəaliyyətinə M.Ə.Rəsulzadənin redaktorluğu ilə "türkləşmək, islamlaşmaq, müasirləşmək" şüarı ilə nəşr olunan "Açıq söz" qəzetində çap etdirdiyi "milli ideal, milli mədəniyyət, milli tarix və milli ədəbiyyat mövzularına həsr etdiyi" yazılarla başlayan Mirzə Bala Məhəmmədzadə ilə "Məhəmməd Əmin Rəsulzadə arasında dərin bir ruhi və mənəvi bağlılıq yaranmış, Mirzə Bala M.Ə.Rəsulzadənin şəxsiyyətini özünə ilham qaynağı olaraq seçmiş, bu yaxınlıq istər Azərbaycanda, istər Türkiyədə və istərsə də Avropada mühacirətdə olanda, bir sözlə, 1915-ci ildən Məhəmməd Əminin vəfatına qədər etmişdir".

I fəslin ilk yarımbaşlığını M.B.Məhəmmədzadənin 1920-ci ilə, rus-bolşevik işğalına qədərki ictimai-siyasi fəaliyyətinə həsr edən müəllif arxiv sənədləri və həmin illərin dövri mətbuatına əsaslanaraq M.B.Məhəmmədzadənin ömür, siyasi və yaradıcılıq yolunun geniş panoramını yaratmağa müvəffəq olur. Beləliklə, inadlı, səmərəli axtarış və ümumiləşdirmələr sayəsində M.B.Məhəmmədzadənin iyirmi iki illik ömür və yaradıcılıq yolunun parlaq mənzərəsi gözlərimiz önündə canlanır.

Bu yarımfəsildə M.B.Məhəmmədzadənin həyatı, ədəbi və ictimai fəaliyyəti ilə yanaşı, həmin illərdə (1905-1920-ci illər) Azərbaycanın siyasi həyatında baş vermiş bir şox hadisələr barəsində də ətraflı məlumat verilir. M.B.Məhəmmədzadənin dostları, əqidə yoldaşları, Müsavat Partiyası ilə əlaqələri, AXS-nin yaranmasında rolu, Azərbaycan Parlamentində Cəfər Cabbarlı ilə birlikdə stenoqrafçı kimi çalışması və s. bu kimi məsələlərə aydınlıq gətirən müəllif 23 ay ərzində fəaliyyət göstərən Cümhuriyyət, həmin dövrdə görülən işlər, dəyişən Nazirlər kabinələri, "Mondors" müqaviləsi, Müsavatın qurultayları və M.B.Məhəmmədzadənin qurultaylardakı məruzələri və s. haqqında da bilgilər verir. R.Əhmədli sənədlərə əsaslanaraq qeyd etməyi lazım bilir ki, Müsavat Partiyası xarici havadarlarına arxayın olub ölkədə siyasi sabitliyi pozmaq niyyətində olan qüvvələrə qarşı mübarizə aparmaqla yanaşı, quruculuq və yeni qanunların yaradılması sahəsində də səmərəli işlər görürdü ki, bu işlərin görülməsində M.B.Məhəmmədzadənin də şəksiz xidmətləri vardı.

Monoqrafiyanın I fəslinin ikinci yarımfəslində M.B.Məhəmmədzadənin Azərbaycanın rus-bolşevik işğalından sonrakı fəaliyyəti araşdırılır.

Sənədlərin dili ilə hakimiyyətin bolşeviklərə niyə və hansı şəraitdə verilməsinə aydınlıq gətirən müəllifin yazdıqlarından aydın olur ki, bolşeviklər 29 aprel 1920-ci ildə Müsavat Partiyasından xaric edilmiş Xəlil İbrahim və Süleyman Abdullayevin vasitəsilə Bakıda Müsavat Partiyasının qurultayını çağırmış və Müsavat Partiyasının da bolşevik platformasını qəbul edərək fəaliyyətini dayandırması təklifi müzakirəyə çıxarılmışdı. Təklif təbii ki, rədd edilmiş, bu işdə səs çoxluğu ilə başqanlıq divanına seçilmiş və konqresdə məruzə ilə çıxış etmiş M.B.Məhəmmədzadənin mühüm rolu olmuşdu. Ən önəmli cəhət o olmuşdu ki, İnqilab Komitəsi sədrinin müavini Mirzə Davud Hüseynova təqdim edilən və M.B.Məhəmmədzadənin məruzəsi əsasında hazırlanan qərarda Azərbaycanın müstəqil olaraq qalacağı, rus ordusunun Azərbaycanı tərk edəcəyi, Azərbaycanın idarə formasını təyin etmək üçün təxirə salınmadan Müəssislər məclisinin şağırılması və siyasi azadlıqların daimi qalacağı başlıca şərt kimi irəli sürülmüşdü.

M.B.Məhəmmədzadənin yeni və çətin bir şəraitdə mübarizəsini davam etdirməsi bolşevik işğalından sonra başlamış, o, M.Ə.Rəsulzadənin tövsiyəsi ilə 27 aprel 1920-ci ildə təşkil olunmuş "Gizli Müsavat"ın rəhbəri, Əbdülvahab Yurdsevər onun müavini, Cəfər Cabbarlı isə gizli Mərkəzi Komitənin katibi təyin olunmuşdular. Müsavat Partiyasının 1920-ci ilin iyununda keçirilən gizli toplantısında partiyanın bütün strukturlarının gizli fəaliyyətə keçməsi barədə qərar qəbul edilmiş, təşkilatın səyi nəticəsində 19 nömrəsi nəşr olunan "İstiqlal" qəzeti çap olunmuşdu.

Bakıdakı fəaliyyəti dövründə M.B.Məhəmmədzadə gizli Milli Müqaviət Komitəsinə rəhbərlik etməklə yanaşı, təqiblərdən yayınmağı bacararaq Kənd Təsərrüfatı Nazirliyində tərcüməçi, orta məktəbdə müəllimlik etmiş, nəhayət 1923-cü ildə Bakını tərk etməyə məcbur olaraq Cənubi Azərbaycana getmiş, 1927-ci ilə qədər Müsavat Partiyasın Təbriz komitəsinə rəhbərlik etmişdir.

Cənubi Azərbaycanda yaşayarkən "Vətən qaldı", "Murad xan" hekayələrini, ermənilərin İranda yeritdikləri antitürk siyasətini ifşa edən "Ermənilər və İran" əsərlərini yazan M.B.Məhəmmədzadə burada yaşamağın və siyasi fəaliyyətlə məşğul olmağın mümkünsüzlüyü ucbatından 1927-ci ildə Cənubi Azərbaycandan ayrılaraq İstanbula gedir və bundan sonra onun həyat və mübarizə tarixinin əsl mühacirət dövrü başlanır.

Monoqrafiyanın I fəslinin üçüncü yarımfəslində M.B.Məhəmmədzadənin mühacirət dövrü ictimai-siyasi fəaliyyəti araşdırılır. Müəllif belə bir tezislə çıxış edir ki, 1927-1932-ci illərdə Türkiyədə yaşayan M.B.Məhəmmədzadənin mücadiləsi təkcə Azərbaycan və azərbaycanlılardan ötrü deyil, bütün Qafqaz və türk dünyasından yana olmuşdur. O, bolşevizm və kommunizm ideologiyasının təhlükəli bir idologiya, bu ideologiyanın yaratdığı siyasi sistemi millətləri öz kökündən, milli varlığından qoparmağa aparan bir yol kimi dəyərləndirmiş, düşündüklərini mətbuat vasitəsi ilə dünya xalqlarına çatdırmağa çalışmışdır.

"Yeni Kafkasiya", "Azəri türk", "Odlu yurd", "Bildiriş", "Azərbaycan yurd bilgisi" kimi mətbuat orqanlarında müxtəlif imzalarla çap etdirdiyi "Azərbaycan köylüsü", "Velikoruslarda əndişə", "Mart faciəsi", "Böyük təhlükə qarşısında", "28 Mayısa doğru", "Bolşeviklər və daşnaklar", "Millət və dövlət", "Yeni türk əlifbası və bolşevik mətbuatı", "31 Mart 1918, Bakı" və s. kimi əsərlərində Azərbaycanın və Sovetlər İttifaqının tərkibində yaşayan türkdilli xalqların problemlərini, erməni xəyanəti və bolşevik istilasını müzakirə obyektinə çevirən M.B.Məhəmmədzadə 1932-ci ildə M.Ə.Rəsulzadənin dəvəti ilə Türkiyədən

Polşaya gedir, müəllifin təbirincə desək, qısa bir müddətdə "özünü mühacirətdəki Azərbaycan yazarlarının ən güclü nümayəndəsi kimi tanıdır".

Azərbaycanın müstəqillik mübarizəsinin davam etdirilməsini özünün əsas qayəsi hesab edən M.B.Məhəmmədzadə Polşada yaşadığı yeddi il müddətində 10 yanvar 1932-ci ildə Berlində M.Ə.Rəsulzadənin redaktorluğu ilə çıxan "İstiqlal" qəzetində, 1934-cü ilin noyabrından 1939-cu illə qədər ayda bir dəfə Berlində Azərbaycan Milli Qurtuluş Hərəkatının orqanı kimi çıxan "Qurtuluş" məcmuəsində xeyli elmi, bədii və publisistik yazılar çap etdirir.

R.Əhmədli doğru olaraq qeyd edir ki, cəmi 51 №si çıxmış "Qurtuluş" dərgisinin, demək olar ki, əksər saylarında əsərləri çap olunmuş mütəfəkkirin "bütün məqalələri Azərbaycanın o dövr siyasi və ictimai düşüncə tarixinin bir salnaməsi mahiyyətindədir və "Qurtuluş" dərgisinin mübarizlik ruhu məhz onun yazılarında ən bariz şəkildə öz ifadəsini tapmışdır".

M.B.Məhəmmədzadənin "Qurtuluş" dərgisində çap etdirdiyi "Dövlət quşu", "Babək və Afşin", "On beş il əvvəl", "Azərbaycan istiqlalı və Oktyabr inqilabı", "Sabir yaşasaydı", "Mirzə Ələkbər Sabir", "Camal Paşa", "Bakı yollarında", "Sergey Kirov", "M.C.Bağırovun raporu", "Koroğlu", "Tariximiz yazılarkən" və s. əsərlərini nəzərdən keçirən müəllif belə bir nəticəyə gəlir ki, mütəfəkkirin bu əsərləri "Azərbaycanın siyasi, ictimai ideoloji və elmi düşüncə tarixini öyrənmək baxımından əvəzsiz mənbələrdir".

Tədqiqatdan öyrənirik ki, 1936-cı ildə Polşanın paytaxtı Varşavada Müsavat Partiyasının üçüncü qurultayı keçirilmiş və qurultayda M.B.Məhəmmədzadəyə "Milli Azərbaycan hərəkatı" adlı əsər yazmaq tapşırılmışdır. O bu tapşırığı ləyaqətlə yerinə yetirmiş, XIX əsrin əvvəllərindən başlayaraq çar Rusiyasının Azərbaycanı istilasından tutmuş 1936-cı ilə qədər Azərbaycanın siyasi tarixini əks etdirmiş, əsas yeri Müsavat Partiyasının fəaliyyətinə və Azərbaycanın müstəqillik uğrunda mübarizəsinə vermişdir.

Hitler Almaniyasının Polşanı işğal etməsi və Varşavada fəaliyyət göstərən mühacirlərin "Prometey" təşkilatının mövcud vəziyyətdə fəaliyyət göstərməsinin mümkünsüz olduğunu görən bir çox mühacirlər kimi M.B.Məhəmmədzadə də yeddi illik fasilədən sonra həyat yoldaşı Bahirə Xanım Qutluqla Türkiyəyə qayıdır. Nuru Paşanın ona bağışladığı Ortaköydəki evdə yaşayan mütəfəkkir Türkiyyat Araşdırmaları İnstitutunda müəllimlik etməklə yanaşı, "Türk İslam Ensiklopediyası" üçün Azərbaycan, Rusiyanın tərkibinə daxil olan müsəlman ölkələri və Türkiyənin tarixi ilə bağlı silsilə yazılar yazır.

***(Davamı 11-ci səhifədə)***

# MİRZƏ BALA MƏHƏMMƏDZADƏYƏ ABİDƏ

Tədqiqatdan bəlli olur ki, Türkiyəyə gələn mühacirlərin yerləşdirilməsi və onların digər problemlərinin həlli üçün əlindən gələni əsirgəməyən M.B.Məhəmmədzadə Türk və Qərb mətbbuatında Azərbaycan, Qafqaz və Türk dünyası ilə bağlı yazılarla çıxış edir. Eyni zamanda onu da öyrənirik ki, Türkiyədə çıxan "Cümhuriyyət", "Azərbaycan", Almani-yanın Münxen şəhəridə nəşr olunan "Dərgi" kimi mətbuat orqanlarında məqalələr dərc etdirən, "Azərbaycan Kültür Dərnəyi", "Azərbaycan Millətçilər Dərnəyi" və digər cəmiiyətlərin işində fəal iştirak edən M.B.Məhəmmədzadə siyasi xadim olmaqla yanaşı, həm də böyük ideoloq idi və türkçülük, islamçılıq və müasirlik ideyasının Türk dünyasında yayılmasında onun da danılmaz xidmətləri olmuşdur.

Professor R.Əhmədli tədqiqatın iki yarımfəsildən ibarət olan ikinci fəslini M.B.Məhəmmədzadənin ideoloji görüşlərinin şərhinə həsr etmişdir.

Birinci yarımfəsildə biz M.B.Məhəm-mədzadənin 1923-cü ilə qədərki, ikinci yarımfəsildə isə mühacirət dövründəki (1923-1959) ideoloji görüşləri ilə tanış oluruq.

Müəllifin qənaətinə görə, M.B.Məhəmmədzadə çox gənc yaşlarında, daha doğrusu Rus-müsəlman məktəbində oxuyarkən müəllimi və məktəbin müdiri Həbib bəy Mahmudbəylidən milliyyətçilk ideologiyasını mənimsəmiş, Bakı Politexnik Məktəbində oxuduğu zaman bu ideologiyanı bir qədər də möhkəmlətmiş, M.Ə.Rəsulzadə ilə yaxın tanışlıqdan sonra onda türkçülük ideologiyası yaranmış və 1917-ci ildə Müsavat Partiyasına üzv olaraq aktiv ideoloji və ictimai-siyasi fəaliyyətə başlamışdır.

R.Əhmədlinin fikrincə, bütün ictimai-siyasi fəaliyyəti boyu əqidəsinə sadiq qalan "M.B.Məhəmmədzadəyə görə, Azərbyacan xalqında formalaşan "dövlət yaratmaq dünyagörüşü"nün qaynağını hər şeydən öncə tarixi inkişaf sürəci içərisində "milliyyət" halından "millət" halına dönüşməsində axtarmaq lazımdır".

Müəllif daha sonra yazır: "Milliyyətçiliyi öz dövlətini qurmaq və ya var olan dövlətini qorumaq istəyən mü-əyyən bir etnosun və ya ulusun ideo-logiyası olaraq qəbul edən M.B.Mə-həmmədzadə göstərmişdi ki, "Azərbaycan Cümhuriyyəti dövründəki milliyyətçilik dövlət və xalqı əlaqələndirməyi, ulusun dövlət sistemində mədəni və siyasi cəhətdən birləşməyi amaclayan bir axın olaraq özünü göstərmişdi".

Məlum olduğu kimi, M.B.Məhəmmədzadə ictimai-siyasi fəaliyyətlə yanaşı, bədii-publisistik və elmi yaradıcılıqla da məşğul olmuşdur. Monoqrafiyanın üçüncü fəslində müəllif bizi M.B.Məhəmmədzadəninelmi, bədii və publisistik yaradıcılığı ilə tanış edir.

R.Əhmədli bildirir ki, M.B.Məhəmmədzadə "Nəfi-elm, yaxud elmin səmərəsi" adlı elmi əsərini 1912-ci ildə yazmış və İsa bəy Aşurbəyovun "Kaspi" mətbəəsində çap etdirmişdir. Əfsuslar olsun ki, ədibin bir çox əsərləri kimi bu əsər də bolşeviklərin Azərbaycanı işğalından sonra məhv edilmiş, mətni, hələ ki, əldə edilməmişdir.

M.B.Məhəmmədzadənin Abbas Səhhət haqqında yazdığı və Tiflisdə nəşr olunan "Gənclər yurdu" məcmuəsində çıxan məqaləsi haqqında məlumat verən müəllif bildirir ki, "Mirzə Balanın ikinci böyük həcmli elmi əsəri 1918-ci ildə Tiflisdə yazıb çap etdirdiyi "İki inqilab arasında" əsəridir. "Müqəddimə", "Mətbuatımız", "Maarif işləri", "Ədəbiyyatımız", "Tiyatromuz", "Ruhanilər və qadın məsələsi" və "Xülasə" hissələrindən ibarət olan bu əsərdə 1905-1917-ci illər arasında Azərbycanda baş vermiş ictimai-siyasi hadisələrdən bəhs olunmuş, "Əkinçi" qəzeti ilə yanaşı 60-a yaxın mətbuat orqanı, maarif, mədəniyyət şəbəkələri, teatr və s. haqqında ətraflı məlumat verilmişdir.

Müəllifin təqdimatından öyrənirik ki, M.B.Məhəmmədzadə yuxarıda adı qeyd olunan əsə təkmilləşdirərək 1922-ci ildə "Azərbaycan Türk mətbuatı" adı ilə ayrıca bir kitab kimi Bakıda nəşr etdirmişdir.



Bu əsəri ətraflı şəkildə tədqiq edən professor R.Əhmədli fəslin sonrakı səhifələrində mütəfəkkirin 1921-ci ildə Bakıda çap etdirdiyi və 12 fəsildən ibarət olan "Azərbycan tarixi", 1927-ci ildə İstanbulun "Nəcmi-istiqlal" mətbəəsində çap etdirdiyi səkkiz bölümdən ibarət "Ermənilər və İran", 1928-ci ildə İstanbulda "Odlu yurd" dərgisində çap etdirdiyi "Muğan xan", 1928-ci ildə İstanbulda nəşr etdirdiyi "Sovet istilası altında Azərbaycan", 1938-ci ildə Berlində "Qurtuluş" jurnalının mət-bəəsində çap olunan "Başlarkən", "Giriş", 12 bölmə və "Son söz"dən ibarət olan "Milli Azərbaycan hərəkatı – Milli Azərbaycan Müsavat xalq firqəsinin tarixi", 1951-ci ildə Ankarada nəşr olunan, "Giriş" və dörd bölmədən ibarət "Azərbaycan Türk tarixində Albaniya" və başqa əsərlərini də sistemli şəkildə araşdırmış, fikirlərini ümumiləşdirərək həmin əsərlərin elmi dəyərini müəyyənləşdirmişdir.

Bu fəsildə M.B.Məhəmmədzadənin bədii və publisistik fəaliyyəti barədə də danışılmış, onun "Açıq söz" və "Bəsirət" qəzetlərində çıxan bir sıra yazıları, "Vətən qaldı" hekayəsi təhlil olunmuş, 1918-ci ildə yazılan, Bakının qurtuluşunda türk əsgərlərinin qəhrəmanlıqlarına geniş yer verilmiş, lakin əfsuslar olsun ki, tam mətni hələ ki, əldə olunmamış, 17 sentyabr 1919-cu ildə Azərbaycan Dövlət Teatrında tamaşaya qoyulan "Bakı uğrunda müharibə" dramından da bəhs olunmuşdur.

Monoqrafiyanın sonunda tədqiqat boyu gəldiyi qənaətləri ümumiləşdirən R.Əhmədli çox doğru olaraq belə bir nə-ticəyə gəlmişdir ki, Mirzə Bala Məhəmmədzadə Azərbaycan, Qafqaz, İdil-Ural və Türküstan mühacirlərinin tanınmış şəxsiyyəti, siyasətçisi, ideoloji və elm adamı, bütün keşməkeşli həyatını çox sevdiyi Azərbaycanın müstəqiliyinə həsr etmiş, Sovet İttifaqı xalqlarının, xüsusilə bolşevik istilası altında inləyən Azərbaycan və digər türkdilli xalqların hürriyyət və istiqlal uğrunda müba-rizəsinin cəsur, yorulmaz və fədakar mücahidi olmuş, bütün şüurlu həyatını fədakarcasına xalqının istiqlal savaşına həsr etmişdir.

Biz 6 mart 1955-ci ildən, yəni M.Ə.Rəsulzadənin vəfatından sonra Azərbaycan Milli Mərkəzi və Müsavat Partiyasının başqanı seçilən Mirzə Bala Məhəmmədzadənin ictimai-siyasi və ədəbi-elmi fəaliyyətinə həsr olunmuş bu əsəri eyni zamanda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yübileyinə ithaf olunmuş qiymətli tədqiqat hesab edirik. Düşünürük ki, XIX əsrin əvvəllərindən başlayaraq çar Rusiyasının və daha sonra bolşeviklərin məmləkətimizi istilasından tutmuş 1959-cu ilə qədərki Azərbaycanın siyasi tarixini mənbələrlə əks etdirən bu monoqrafiya M.B.Məmmədzadəyə əbədi abidə, fəlsəfə və tarixşünaslığımızın uğuru, müəllifin Azərbycan ədəbi-elmi ictimaiyyətinə qiymətli töhfəsidir.

*1 may 2018-ci il*